## “Yaşıl təşəbbüslər” kateqoriyası

XXI əsr təhsilalanları təhsildə tətbiq olunan yeni yanaşmalar nəticəsində müasir cəmiyyətin müxtəlif sahələrinin inkişafı üçün zəruri olan elm sahələri istiqamətində bilik və bacarıqlar əldə edirlər. Məhz bunun nəticəsi olaraq real həyati problemlərin həlli istiqamətində bilik və bacarıqlarını tətbiq edərək cəmiyyətə öz töhfələrini verə biləcək gənc nəsil formalaşmağa başlamışdır.

SAF 2024-də “Yaşıl təşəbbüslər” adlı yarış kateqoriyası təşkil ediləcəkdir.

1. **Məzmun** - Layihə mövzusu “İqlim dəyişikliyində yaşıl həllər” olaraq müəyyənləşdirilmişdir. Qeyd olunan layihə mövzusunun seçilməsində əsas məqsəd diqqətin dünyanın qarşılaşdığı qlobal problemlərdən biri olan iqlim dəyişkənliyinə yönləndirməklə yanaşı təhsilalanları bu istiqamətdə müxtəlif həll yollarını özündə əks etdirən layihələr təqdim etməyə, həmçinin sosial və iqtisadi inkişafa verə biləcək tövhələrə kökləməkdir. Eyni zamanda hər bir komanın təqdim etdiyi layihələr üzrə maliyyə savadlılığı meyarlarının diqqətə alınması vasitəsilə bazar ehtiyaclarını əsas tutaraq məhsul istehsal etməyə əsaslanan sahibkar formalaşdırmaqdır.
2. **İştirakçılar** – “Yaşıl təşəbbüslər” kateqoriyasında 14-21 yaşlı təhsilalanların komanda və fərdi şəkildə iştirakı üçün nəzərdə tutulmuşdur.
3. **Seçim mərhələsi** - Festivalda nümayiş üçün layihələrin qiymətləndirilməsi müəyyənləşdirilmiş münsiflər tərəfindən aparılacaqdır. Təyin olunmuş müddət ərzində qeydiyyatdan keçmiş və layihələrini təqdim etmiş komandalar seçim mərhələsində iştirak edəcəkdir. Layihələrin seçimi festivaldan əvvəl həyata keçirilcək və bu mərhələ üzrə uğur qazanan layihələr festivalda iştirak hüququ qazanacaqdır. Seçim məqsədilə aparılan qiymətləndirmədə - layihə mövzusunun innovativliyi, funksionallağı, unikallığı, eyni zamanda təqdimat və sahibkarlıq bacarıqları üzrə meyarlar nəzərə alınacaqdır .

Festival müddətində iştirakçı komandaların layihələri münsiflər tərəfindən yuxarıda qeyd olunan istiqamətlər üzrə qiymətləndiriləcək və daha uğurlu layihə müəllifləri qiymətləndirmə nəticəsinə uyğun olaraq mükafatlandırılacaqdır.

**Qeyd:** Hər komanda iki iştirakçı (maksimum) və bir mentordan ibarət olmalıdır. İştirakçı yalnız bir kateqoriyada və bir komandada iştirak edə bilər. Mentorların bu istiqamətdə fəaliyyəti maksimum iki komanda ilə məhdudlaşdırılır.

**Təqdimat** – Saytda qeydiyyatdan keçən hər bir komanda təqdim etdikləri layihənin (maksimum 3 dəqiqə) video, həmçinin və mətn formatında olmaqla əvvəlcədən qeyd edilmiş vaxt ərzində sayta yüklənməlidir. Video və mətn formatında olan təqdimatlarda layihə

məzmunu, məqsədi, hazırlanması istiqamətində fəaliyyət öz əksini tapmalıdır. Videotəqdimatlar yalnız komanda üzvləri tərəfindən edilməlidir. Festivalda iştirak üçün seçim mərhələsi layihənin təqdim olunan video və mətn formalı təqdimat üzərindən qiymətləndirilərək aparılacaqdır.

Festival zamanı iştirakçılar layihə təqdimatlarını etmək məqsədilə köməkçi vasitə olaraq şəxsi notbuk və ya planşetlərdən istifadə edəcəkdir. Hər komandanın hazırladıqları layihənin təbliğatı və məlumat xarakterli rolap (roll up) hazırlaması zəruridir. Rolap ölçüsü 200smx85 sm olmalıdır.

**Qiymətləndirmə**

| Meyarlar | Bal |
|---|---|
| Sahibkarlıq və maliyyə savadlılığı – layihə ideyası və məhsulu istiqamətində biznes maraqlarının irəli sürülməsi (biznes planı, maliyyə savadlılığı, təbliğat, marketing və s.) | 20 |
| İnnovativlik – layihə ideyasının reallaşdırılmasında innovativ yanaşmaların tətbiqi | 20 |
| Funksionallıq – hazırlanmış maket, prototip və ya digər layihə məhsulunun funksionallığı (işlək olması) | 25 |
| Unikallıq – yeni (təkrarlanmayan) layihə ideyası və məhsulu | 20 |
| Təqdimat – təyin edilmiş vaxt müddətində fikirləri və ya məlumatları aydın, sistemli şəkildə çatdırılması, eyni zamanda səs tonu, bədən dili, göz təması və s. dən düzgün istifadə | 15 |
| **Ümumi** | **100** |

**Qeyd:** Layihə mövzusuna uyğun olmayan layihələr seçim mərhələsinə buraxılmayacaq və qiymətləndirilməyəcəkdir.

**Tələblər**

Komanda tərkibi: 2 iştirakçı və 1 mentor

Yaş həddi: 14-21 ( qeydiyyat bitənə qədər olan yaş hesablanır)

**Qeydiyyat üçün son tarix:** 31.08.2024

Layihələrin sayta yüklənməsi üzrə son tarix: 25 sentyabr